# Kosmik fəaliyyət daxilində kosmik turizmin hüquqi tənzimlənməsinin bəzi məsələləri

**h.e.d., prof. Quliyev İbrahim Oruc oğlu**
**Xəlilov Zafiq Zakir oğlu**
**Milli Aviasiya Akdemiyası**

*Məqalədə beynəlxalq kosmos hüququnda kosmik turizmin hüquqi tənzimlənmə məsələlərinin əsas mahiyyətinin müəyyən edilməsi, bu sahədə mövcud hüquqi kateqoriyaların nəzəri şərhi və dövlətdaxili qanunvericilik aktlarının müqayisəli təhlili, kosmik turistlərin hüquqi statusu ilə əlaqəli problemlər və qeyd olunanlarla bağlı hüquqi tənzimlənmə perspektivləri göstərilərək müəyyən təkliflər verilmişdir.*

***Açar sözlər: "kosmik fəaliyyət", "kosmik turizm", "kosmik turist";***

Qeyd etməliyik ki, bununla bağlı əsas məsələlər "Beynəlxalq kosmos hüququnda kosmik turizmin hüquqi tənzimlənmə perspektivləri" adlı elmi məqalədə şərh edilmişdir. Burada da, eyni zamanda xüsusi önəmli məqamlar ön plana çəkilərək mühüm təkliflər verilmişdir.

Ümumilikdə, kosmik fəaliyyət dedikdə isə kosmik məkan, Ay və digər səma cisimlərinin istifadəsi və tədqiqatı ilə əlaqəli iş aparılması sahəsində istənilən fəaliyyət başa düşülür [5; 164].

Kosmik fəaliyyət aşağıdakıları özündə birləşdirir:

- kosmik texnikanın, kosmik materialların və kosmik texnologiyanın və kosmik fəaliyyətlə əlaqəli digər xidmətlərin yaradılması və istifadəsi;
- müvafiq dövlətin komik məkanın istifadəsi və tədqiqatı sahəsindəki beynəlxalq əməkdaşlığı;

Qeyd etməliyik ki, kosmik fəaliyyət bir qayda olaraq lisenziyalaşdırılır. Kosmik infrastruktura olmadan kosmik fəaliyyətin reallaşdırılması qeyri-mümkündür. Bu səbəbdən də bir çox dövlətlərin "Kosmik fəaliyyət haqqında" qanununda kosmik infrastrukturaya daxil olan təsisatlar əsaslı şəkildə qeyd olunur. (Məsələn Rusiya Federasiyasının "Kosmik fəaliyyət haqqında" Qanunun 18-ci maddəsində kosmik infrastrukturanın anlayışına yer verilmişdir) [8; 9-14].

*Kosmik uçuş zamanı ekipaj üzvlərinin və digər iştirakçıların hüquqi vəziyyəti (Kosmik turistlərin hüquqi statusu).* Yuxarıda vurğuladığımız kimi kosmik turizmin hüquqi tənzimlənmə məsələlərinin konkret olaraq hansı hüquq sahəsinə (beynəlxalq kosmos hüququ və beynəlxalq turizm hüququ) aid olması bu gün hüquq ədəbiyyatında ortaya çıxan mühüm hüquqi müzakirələrdən biri hesab olunur. Eyni zamanda kosmik turistlərin (və ya Kosmosa səyahət məqsədi ilə gedən turistlərin) hüquqi

statusunun müəyyənləşməsi məsələləri də bu baxımdan həm beynəlxalq kosmos hüququ həm də, beynəlxalq turizm hüququ daxilində ümumnəzəri müddəalarla nəzərdən keçirilməlidir. Beynəlxalq hüquq sahəsində turistlərin hüquqi statusunun müəyyən edilməsi məsələləri vacib rol oynayır. Turistlərin hüquqi statusundan danışarkən, ilk növbədə, "turist" məfhumunun mənası izah olunmalı, ona aid edilən şəxslərin dairəsi müəyyən edilməlidir. "Turist" terminin üzə çıxarılmasında hüquq normaları (beynəlxalq və ya milli) vacib rol oynadığına görə onların təsbit olunduğu aktların təhlil edilməsi bu nöqteyi-nərədən zəruri əhəmiyyətə malikdir. 1954-cü il tarixli "Turistlər üçün gömrük güzəştləri haqqında" Konvensiyanın 1-ci maddəsi də turist kimi adətən yaşadığı dövlət istisna olmaqla, Konvensiyanın digər üzv-dövlətinin ərazisində istənilən 12 aylıq dövr ərzində 24 saatdan az, 6 aydan çox olmayan müddətdə (immiqrasiya etmək istisna olmaqla) qanunla icazə verilmiş əsaslar – turizm, əyləncə, idman, sağlamlıq, ailə vəziyyəti, təhsil, dini ziyarət və ya işgüzar məqsədlərlə qalan şəxsləri müəyyən edir [4; 72]. Hesab edirik ki, bu tərif turist statusunun əldə edilməsi ilə bağlı zaman meyarının dəqiq hüdudlarını təsbit etmişdir. Lakin bir məsələ də nəzərə alınmalıdır ki, indiki halda reallaşdırılma ərəfəsində olan kosmik turizm nöqteyi-nəzərindən bu tərifdə yalnız dövlət və dövlətin ərazisi kimi

məkanın qeyd olunması düzgün deyil. Burada dövlətin ərazisi ilə bərabər yer məfhumunun qeyd olunması daha məqsədəuyğundur.

"Turist" termininin müəyyənləşdirilməsində müvafiq dövlətdaxili qanunvericilik aktları da özünəməxsus rol oynayır. Məsələn, Azərbaycan Respublikasının 4 iyun 1999-cu il tarixli "Turizm haqqında" Qanununun 1-ci maddəsində turist sayılması üçün şəxsin müvafiq terminin tətbiq dairəsinə aid edilməsi - istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə, 24 saatdan 12 ayadək müddətdə müvəqqəti olması tələb olunur [1]. Qeyd edək ki, milli qanunvericilik aktında məkan anlamında ölkə ilə bərabər yer məfhumu da nəzərə alınmışdır. Müəyyən dəyişikliklərlə bu səpkili müddəalar Rusiya, Ukrayna, Qazaxıstan, Özbəkistan və s. kimi dövlətlərin müvafiq qanunvericilik aktlarında da təsbit olunmuşdur.

Turistlərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı məsələlər özündə, həmçinin onların müxtəlif sferada mövcud olan hüquq və vəzifələrini də birləşdirir. Həmin hüquq və vəzifələr müxtəlif beynəlxalq sənədlərdə və milli qanunvericilik aktlarında təsbit edilmişdir. Burada əsas sənəd qismində Ümumdünya Turizm

Təşkilatının VI sessiyasında qəbul olunmuş 1985-ci il tarixli Turizm Xartiyası və Turist Məcəlləsi çıxış edir. Sənədin belə adlandırılmasında başlıca məqsəd müvafiq sahədə dövlətlərin və turistlərin hüquq və vəzifələrin ayrıca şəkildə ifadə olunmasıdır. Ona görə də, Turizm Xartiyası turizm və onun inkişafı ilə bağlı birbaşa dövlətlərə münasibətdə normaları müəyyən etsə də, Turist Məcəlləsi sırf turistlərin hüquqi statusunun müəyyənləşdirilməsi baxımından zəruri müddəaları özündə əks etdirir. Belə ki, göstərilən Məcəllənin müddəaları turistlərin davranışlarına münasibətdə nəzərdə tutulan vəzifələrin həyata keçirilməsinə istiqamətlənmişdir [4; 83].

Turistlərin hüquq və vəzifələri, həmçinin, dövlətdaxili qanunvericilik aktlarında da ehtiva olunmuşdur. Nümunə qismində “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun 6-7-ci maddələrini göstərmək olar.

Ümumilikdə yuxarıda turistlərin hüquqi statusu ilə bağlı beynəlxalq hüquqi aktların əsas müddəaları şərh edilmişdir. Lakin kosmik turistlərin hüquqi statusunun müəyyən olunması üçün kosmik məkanın özünəməxsus cəhətləri ilə əlaqədar bəzi fərqli məqamları özündə ehtiva etdiyini nəzərə alaraq bu məsələnin beynəlxalq kosmos hüququ çərçivəsində araşdırılması daha məqsədəuyğundur. Bu nöqteyi-nəzərdən kosmik turistlərin hüquqi statusunun müəyyənləşməsi

məsələləri ayrı-ayrı dövlətlərin "Kosmik fəaliyyət haqqında" qanunları, mühüm beynəlxalq hüquqi aktlar və qeyd olunanlara əsasən gələcəkdə qəbul olunacaq komik turizmim hüquqi rejimini müəyyən edən beynəlxalq müqavilə çəçivəsində şərh edilmişdir.

Kosmik turizmin inkişafa başladığı indiki dövrdə kosmik səyahətlərdə iştirak edən şəxslərin hüquqi statusu ilə bağlı müəyyən problemlər yarana bilər. Bu status tam mənada professional kosmonavtların statusu ilə uyğun gəlmir. Bu gün beynəlxalq kosmik turizmin hüquqi rejimi lazımi səviyyədə tənzimlənmədiyi üçün 22 aprel 1968-ci il tarixli "Kosmonavtların xilas edilməsi haqqında Saziş" həm professional kosmanavtlara həm də kosmik turistlərə aid olunur. Ümumiyyətlə kosmonavt – kosmik uçuşlarda kosmik gəminin komandiri və ya ekipaj üzvü qismində iştirak edən şəxsdir. 1967-ci il "Kosmos haqqında" müqaviləyə, habelə "Kosmonavtların xilas edilməsi haqqında Saziş"-ə və Ay haqqında Sazişə əsasən, kosmonavtlar "bəşəriyyətin elçiləri" kimi nəzərdən keçirilir. Qeyd olunan beynəlxalq müqavilələr dövlətlərin üzərinə kosmonavtlarla əlaqəli bir çox hüquq və vəzifələr qoymuşdur. Göründüyü kimi kosmonavtla kosmik turistlərin hüquqi statusu arasında kəskin fərqlər mövcuddur. İndiki halda kosmik turistlərin hüquqi statusu hər hansı beynəlxalq hüquqi aktla tənzimlənmədiyi üçün

“Kosmonavtların xilas edilməsi haqqında Saziş”-in şərtləri tam mənada kosmik turistlərə də şamil olunur. Məlum olduğu kimi, müasir elmi-texniki inkişaf nəticəsində kosmosla bərabər Antarktidaya da, turizm məqsədləri ilə səfərlərin reallaşdırılması üçün şərait yaranmışdır. Müəyyən hüquqşünas alimlərin fikrincə, Antarktika və kosmik məkan ümumi istifadə ərazisinə çevrildiyindən və onların rejimi universal beynəlxalq müqavilələrlə tənzimləndiyinə görə bu ərazidən istifadə forması kimi yerdəyişmə forması universal səviyyədə nizama salınmalıdır. Hal-hazırda antarktik turizm bir neçə ümumi xarakterli beynəlxalq normativ sənədlərlə tənzimlənib. [6; 61]. Ancaq kosmik turizm isə heç bir universal və regional normativ-hüquqi aktla tənzimlənməmişdir. Onu da qeyd etməliyik ki, kosmik turizmin heç bir normativ-hüquqi aktla tənzimlənməməsinə baxmayaraq bu turizm növü hal-hazırda qüvvədə olan beynəlxalq hüquqi-aktların heç biri ilə qadağan edilmir. Qeyd etməliyik ki, məqalənin əvvəlində vurğuladığımız kimi, bu gün kosmik turizm planlarını reallaşdırmaq ərəfəsində olan bir çox şirkətlər hər biri ayrılıqda özünəməxsus şərtlər müəyyən edib sadəcə qısa treyninq vasitəsi ilə vətəndaşları bu uçuşa dəvət edirlər. Bu baxımdan kosmik turizmin hüquqi rejiminin tənzimlənməsi üçün bu sahədə mütləq mənada vahid beynəlxalq səviyyəli hüquqi akt qəbul olunmalıdır. Belə bir beynəlxalq-hüquqi

akt ilk növbədə bu sferada fəaliyyət göstərən bütün şirkətlər üçün vahid qəbul olunmuş qaydalar müəyyən edə bilər. Hal-hazırda bir çox dövlətdaxili normativ aktlarda bu məsələyə (kosmik turizm) xüsusən də “Kosmik fəaliyyət haqqında” olan qanunlar çərçivəsində yer verilmişdir. Ancaq qeyd etməliyik ki, bu sahədə beynəlxalq sazişin olması ümumilikdə dünya dövlətləri üçün etalon rolunu oynayacaq. Ən əsası məhz bu sazişlə hansı şəxslərin kosmik uçuşda iştirak etməsi və ya bu uçuşda iştirak edə bilməyən şəxslərin dairəsi konkret olaraq müəyyən ediləcək. Bu səpkili sazişdə xüsusi bölmə məhz kosmik turistlərin hüquq və vəzifələrinə həsr oluna bilər. Bu bölmədə kosmik turistlərin həyat və sağlamlığının qorunması, bununla bağlı zəruri halda ilk andan turistlərə təxirəsalınmaz tibbi yardım göstərilməsi, digər bu kimi məsələlər nəzərdə tutula bilər. Qeyd edək ki, turizm sahəsində turistlərin təhlükəsizliyinin təmin olunması həmişə əsas diqqət mərkəzindədir. Bu baxımdan qəbul olunacaq sazişdə həm də kosmik turizmin reallaşdırılması çərçivəsində kosmik turistlərin təhlükəsizliyinin təmin olunması ilə bağlı dövlətlərarası əməkdaşlıq məsələlərinə xüsusi yer ayrılmalıdır. Bununla yanaşı, turistlərin səyahət zamanı şəxsi təhlükəsizlik qaydalarına əməl olunması kimi öhdəliklər xüsusi bölmə şəklində də, təsbit oluna bilər. Belə saziş nəticə etibarilə kosmik turistlərin

hüquqi statusunu və ümumilikdə kosmik turizmin hüquqi rejimini müəyyən edəcək.

Əksər ölkələrdə kosmik turist və ekipaj üzvlərinin hüquqi statusu həmin ölkələrin "Kosmik fəaliyyət haqqında" qanunu və dövlətlərin kosmik agentlikləri və ya bu sahədə mövcud olan müvafiq təşkilatları arasında ikitərəfli müqavilələri ilə müəyyən olunur. Məsələn, Rusiyanın "Kosmik fəaliyyət haqqında" Qanununun 20-ci maddəsinə əsasən Kosmik uçuşda iştirakla bağlı istək bildirən və müəyyən olunmuş peşəkarlıq və tibbi tələblərə cavab verən RF-nin vətəndaşları kosmik uçuşun həyata keçirilməsi və hazırlığına müsabiqə əsasında seçilirlər. Bir çox dövlətlərdə kosmonavtların hazırlıq qaydası, idarə edilən kosmik obyektlərin ekipajının formalaşdırılması və uçuş proqramının təsdiq olunması, habelə kosmonavtların hüquq və vəzifələri, onların əməyinin ödənilməsi və professional fəaliyyətləri ilə əlaqədar digər şərtlər həmin dövlətin qanun və normativ-hüquqi aktları çərçivəsində müqavilələrə uyğun olaraq müəyyən olunur [7; 38]. Kosmosa turizm məqsədilə kommersiya xarakterli kosmik fəaliyyətin hüquqi rəsmiləşdirilməsi üçün adətən kosmik turist, vasitəçi və kosmik uçuşu reallaşdıracaq aidiyyəti şirkət arasında müqavilə bağlanılır. Qeyd olunan şəkildə bağlanılan müqavilələrin ümumi qaydası, əsas şərtləri və bütövlükdə nümunəvi forması da məhz kosmik turizmlə əlaqədar qəbul olunacaq

vahid beynəlxalq hüquqi aktda mütləq surətdə öz əksini tapmalıdır. Bununla əlaqəli olaraq 1970-ci il Səyahətlər üçün müqavilələr üzrə Beynəlxalq Konvensiyanın mühüm müddəalarına da istinad edilə bilər.

Bununla yanaşı qeyd edək ki, Almaniya Federativ Respublikasının 1979-cu il tarixli "Turizm kontraktları haqqında" Qanunu turizm şirkətlərinin məhkəmə qaydasında istehlakçılar qarşısında cavab verməsi ilə bağlı münasibətləri tənzim edir. Ümumiyyətlə beynəlxalq turizm münasibətlərinin tənzimlənməsində məhkəmə presedentləri də özünəməxsus şəkildə mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə kosmik turizm planlarını reallaşdırmaq üzrə olan şirkətlərin sayı artdıqca məhz belə turlarda iştirak edən şəxslərlə imzalanan müqavilələrdə də bu səpkili müddəalar ön planda olmalıdır. Bunun tətbiqi üçün ilk öncə qeyd etdiyimiz qəbul oluncaq kosmik turizmin hüquqi rejimini tənzimləyən beynəlxalq hüquqi aktda bu növ turizmi həyata keçirəcək şirkətlərin məhkəmə qaydasında istehlakçılar qarşısında cavab verməsi ilə bağlı münasibətlər öz ifadəsini tapmalıdır. Turizm sahəsində mövcud bir sıra beynəlxalq müqavilələrin tələbləri məhz qəbul oluna biləcək kosmik turizmin hüquqi rejimini müəyyən edən beynəlxalq hüquqi aktda xüsusi əsaslarla təsbit oluna bilər. 1954-cü ildə BMT çəçivəsində işlənib hazırlanmış və qəbul olunmuş

Turistlər üçün gömrük güzəştləri haqqında Konvensiyaya əsasən, turistlərin şəxsi istifadə əşyalarının sırası müəyyən edilmişdir. Həm də bu konvensiyanın turistlərin əl baqajında olan və sui-istifadə halları üçün istifadəsinə icazə verilməyən şəxsi istifadə əşyalarının müvafiq beynəlxalq-hüquqi sənəddə göstərilən miqdarda ölkə ərazisinə gətirilməsi halları təsbit olunmuşdur. Hesab edirik ki, kosmik məkanda kosmik turistlərin istifadə edə biləcəyi əşyaların siyahısı dəqiqləşdirilərək kosmik turizmin hüquqi rejimini müəyyən edən beynəlxalq hüquqi sənəddə mütləq qaydada öz əksini tapmalıdır. Dünyada artıq kosmik turizmin aktual olduğu bir dövrdə yuxarıda qeyd olunan məsələlərin həlli xüsusilə vacibdir.

Məsələn, Rusiya Federasiyası Hökumətinin "Federal Kosmik Agentliyin Əsasnaməsinin təsdiq olunması haqqında" 26 iyun 2004-cü il 314 №-li qərarı ilə Agentlik aşağıdakı məsələləri təşkil edir:

- Kosmonavtların seçilməsi və hazırlığı (m. 5.3.11.6 Əsasnamə);
- Kosmik fəaliyyət məsələləri ilə bağlı digər dövlətlərin müvafiq təşkilatları və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin yaradılması və müəyyən olunmuş qaydada beynəlxalq müqavilələrin imzalanması; (m. 5.3.12 Əsasnamə);
- Kommersiya xarakterli beynəlxalq kosmik proqram və layihələrin reallaşdırılması ilə bağlı xarici partnyorlarla müəyyən olunmuş qaydada

müqavilələrin bağlanması; (m. 5.3.19 Əsasnamə) [8; 9-14].

Yuxarıdakı misalda qeyd olunan məsələlərin o cümlədən kosmik turizmlə bağlı vacib məqamların gələcəkdə Azərbaycan Respublikasının Milli Aerokosmik Agentliyinin həyata keçirdiyi mühüm fəaliyyət istiqamətləri sırasına daxil olması mütərəqqi hesab oluna bilər. Bununla bağlı qəbul edilən "Azərbaycan Respublikasının 2008-2025-ci illər üçün kosmik fəaliyyət konsepsiyası" və "Milli Aerokosmik Agentliyin 2009-2013-cü illər üçün inkişaf Proqramı"nı xüsusilə vurğulamalıyıq.

Hal-hazırda qüvvədə olan beynəlxalq və ölkədaxili normativ aktların heç biri Kosmosda göstərilən (xüsusən də kosmik turizmlə əlaqəli) xidmətlərin vergi qaydaları və prinsiplərini nəzərdə tutmayıb. Kosmik turizmin ilk reallaşdırıldığı dövrdə turistik fəaliyyət xüsusən də kosmik turizm lisenziyalaşdırılmamışdır. Demək olar ki, əksər ölkələrdə kosmik turizm hal-hazırda lisenziyalaşdırılan fəaliyyət növünə aid deyil. Kosmik turizm fəaliyyətinin lisenziyalaşdırılması və Kosmosdakı xidmətlərin vergi qaydaları və prinsipləri ilə bağlı beynəlxalq çərçivəli ümumi xarakterli qaydalar qəbul olunacaq kosmik turizm haqqında beynəlxalq hüquqi aktda təsbit olunmalıdır.

Sığorta kosmik fəaliyyətin ayrılmaz tərkib hissəsidir. Məsələn, Rusiya Federasiyasının

“Kosmik fəaliyyət haqqında” Qanununun 25-ci maddəsində qeyd olunur ki: “Kosmik texnikanı istismar edən və ya sifariş əsasında kosmik texnikanın yaradılması və istifadəsini həyata keçirən təşkilatlar və vətəndaşlar kosmonavtların, kosmik infrastruktur obyektinin işçilərinin həyat və sağlamlığını həm də həyat və sağlamlığa və digər şəxslərin əmlakına vurulan zərərə görə məsuliyyəti qanunla müəyyən edilmiş qaydada mütləq olaraq sığortalamalıdırlar. Məsələn, Rusiyada hal-hazırda üçüncü şəxslər qarşısında mülki məsuliyyətin mütləq sığortasını Federal Kosmik Agentlik həyata keçirir [6; 65]. İndiki halda əksər ölkələrdə bir qayda olaraq kosmik fəaliyyətlə bağlı sığorta haqqı 150 mln dollardan 500 mln dollara qədər müəyyən olunur. Kosmik fəaliyyəti həyata keçirən təşkilatlar və vətəndaşlar könüllü şəkildə kosmik texnikanı (risklərlə bağlı itkilər, kosmik texnikanın zədələnməsi və s.) sığortalaya bilərlər. Hər hansı bir dövlətin yurisdiksiyası altında kosmik fəaliyyəti həyata keçirən xarici təşkilatlar və vətəndaşlar kosmik texnikanı və ən əsası kosmik fəaliyyətlə əlaqədar riskləri həmin dövlətin mülki qanunvericiliyi (Mülki Məcəllə) ilə müəyyən edilmiş qaydada sığortalıyırlar. Eyni qaydada kosmik fəaliyyətin sığortası qaydası, onun təşkili, həyata keçirilmə formaları, dəyən zərərin ödənilməsi, konkret məbləğ çərçivəsində sığorta haqqı, kosmosa turistik səfərlərdə iştirak edən

vətəndaşların tibbi sığortalanmasının təşkili və şərtləri və s. məsələlər gələcəkdə qəbul olunacaq kosmik turizmin hüquqi rejimini müəyyən edən beynəlxalq hüquqi aktda mütləq surətdə təsbit olunmalıdır.

Ümumiyyətlə bu gün turizmin yeni növlərinin (kosmik turizm) inkişafı və bu inkişafa uyğun hüquqi islahatların reallaşdırılması turizm sahəsi üzrə ixtisaslaşmış beynəlxalq təşkilatlardan o cümlədən BMT-nin digər bu səpkili təşkilatlarından daha çox asılıdır. Qeyd etməliyik ki, müvafiq sferada yəni turizmin yeni növlərinin (kosmik turizm) hüquqi tənzimlənməsi baxımından Ümumdünya Turizm Təşkilatı xüsusilə mühüm rol oynayır. Lakin bununla bağlı onun beynəlxalq hüquq yaradıcılığı prosesində iştirakı və imkanları genişləndirilməlidir. Və ya kosmik turizmin hüquqi rejiminin müəyyən olunması sahəsində intensiv hüquqi islahatların reallaşdırılması baxımından kosmik turizm sferasındakı hüquqi kateqoriyaları şərh edərkən qeyd etdiyimiz kimi Kosmik məkan üzrə beynəlxalq qurum yaradılmalıdır.

*Kosmik fəaliyyət daxilində kosmik turizmin hüquqi tənzimlənmə məsələləri ilə bağlı həyata keçirilən sistemli analiz nəticəsində aşağıdakı elmi nəticələr əldə olunub:*

1) Kosmik turizmin hüquqi rejiminin və kosmik turistlərin hüquqi statusunun hər hansı beynəlxalq hüquqi aktla tənzimlənməməsi ilə

əlaqədar olaraq bu sahədə mütləq mənada vahid beynəlxalq hüquqi akt qəbul olunmalıdır.

2) Qəbul olunacaq kosmik turizm haqqında beynəlxalq sazişdə hansı şəxslərin kosmik uçuşda iştirak etməsi və ya bu uçuşda iştirak edə bilməyən şəxslərin dairəsi konkret olaraq müəyyən edilməlidir.
3) Belə bir sazişdə xüsusi bölmə məhz kosmik turistlərin hüquq və vəzifələrinə həsr olunmalıdır. Bu bölmədə kosmik turistlərin həyat və sağlamlığının qorunması, bununla bağlı zəruri halda ilk andan turistlərə təxirəsalınmaz tibbi yardım göstərilməsi, digər bu kimi məsələlər nəzərdə tutula bilər.
4) Qəbul olunacaq sazişdə həm də kosmik turizmin reallaşdırılması çərçivəsində kosmik turistlərin təhlükəsizliyinin təmin olunması ilə bağlı dövlətlərarası əməkdaşlıq məsələlərinə xüsusi yer ayrılmalıdır. Bununla yanaşı turistlərin səyahət zamanı şəxsi təhlükəsizlik qaydalarına əməl olunması kimi öhdəliklər xüsusi bölmə şəklində də, təsbit oluna bilər.
5) Kosmosa turizm məqsədilə kommersiya xarakterli kosmik fəaliyyətin hüquqi rəsmiləşdirilməsi üçün bağlanılan müqavilələrin ümumi qaydası, əsas şərtləri və bütövlükdə nümunəvi forması da məhz

kosmik turizmlə əlaqədar qəbul olunacaq vahid beynəlxalq hüquqi aktda öz əksini tapmalıdır.

6) Kosmik turizmin hüquqi rejimini tənzimləyən beynəlxalq hüquqi aktda bu növ turizmi həyata keçirəcək şirkətlərin məhkəmə qaydasında istehlakçılar qarşısında cavab verməsi ilə bağlı münasibətlər təsbit olunmalıdır.
7) Mühüm beynəlxalq konvensiyaların müddəalarına əsasən kosmik məkanda kosmik turistlərin istifadə edə biləcəyi əşyaların siyahısı dəqiqləşdirilərək qəbul olunacaq kosmik turizmin hüquqi rejimini müəyyən edən beynəlxalq hüquqi sənəddə nəzərdə tutulmalıdır.
8) Kosmik turizm fəaliyyətinin lisenziyalaşdırılması və kosmosdakı xidmətlərin vergi qaydaları və prinsipləri ilə bağlı beynəlxalq çərçivəli ümumi xarakterli qaydalar qəbul oluna biləcək kosmik turizm haqqında beynəlxalq hüquqi aktda təsbit olunmalıdır.
9) Kosmik fəaliyyətin sığortası qaydası, onun təşkili, həyata keçirilmə formaları, dəyən zərərin ödənilməsi, konkret məbləğ çərçivəsində sığorta haqqı, kosmosa turistik səfərlərdə iştirak edən vətəndaşların tibbi sığortalanmasının təşkili və şərtləri və s.

məsələlər gələcəkdə qəbul olunacaq kosmik turizmin hüquqi rejimini müəyyən edən beynəlxalq hüquqi aktda mütləq surətdə təsbit olunmalıdır.

10) Kosmik turizmin hüquqi rejiminin müəyyən olunması sahəsində intensiv hüquqi islahatların reallaşdırılması baxımından kosmik məkan üzrə beynəlxalq qurum yaradılmalıdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının “Turizm haqqında” 4 iyun 1999-cu il tarixli Qanunu;
2. Соглашение о спасании космонавтов, возвращении космонавтов и возвращении объектов, запущенных в космическое пространство, 1968 года.
3. Конвенция о регистрации объектов, запускаемых в космическое пространство (Нью-Йорк, 14 января 1975 года).
4. Ə.İ.Əliyev, E.Aslanov, «Beynəlxalq turizm hüququ» Bakı, 2012;
5. И.Глебов “Международное право : словарь” (Дрофа) Москва, 2010;
6. С.Малков, “Космическое право : курс лекций” Москва, 2007;
7. Батяев А.А. Комментарий к Закону РФ от 20 августа 1993 г. N 5663-1 "О

космической деятельности". - Система ГАРАНТ, 2011 г.
8. Е.Л.Писаревский: Правовые основы космического туризма // Туризм: право и экономика. - 2006. - N 2. - С. . 9-14.
9. Н.Соколова, “Туризм в Российской Федерации : Правовое регулирование” : учебное пособие; (Волтерс Клувер) Москва, 2010;

**Some issues of legal regulation of space tourism within space activity**

**Annotation**

**Kuluyev İ.O., Prof Dr. of Law.**
**Khalilov Z.Z.,**
**National Aviation Academy**

**Keywords: «space activity», «space tourism», «space tourist»;**

The offers related to definition of main essence of legal regulation of space tourism in the international space law, the theoretical comments of current legal categories in this area and comparative analysis of interior state legislative acts, problems related to legal status of the space tourists and perspectives of legal regulation on above-said are stated in the article.

# Некоторые вопросы правового регулирования космического туризма в рамках космической деятельности

**Аннотация**

**д.ю.н., проф. Кулиев Ибрагим Орудж оглы**
**Халилов Зафиг Закир оглы**
**Национальная Академия Авиации**

**Ключевые слова: «космическая деятельность», «космический туризм», «космический турист»;**

В статье даны указаны и даны определенные предложения по определению основной сущности вопросов правового регулирования космического туризма в международном космическом праве, теоретическое комментарие правовых категорий в этой сфере и сравнительный анализ внутригосударственных законодательных акт, проблемы связанные с правовым статусом космических туристов и перспективы правового регулирования в связи с вышеуказанными.

İmza: ___________________________